> *Azərbaycan 1993-2003-cü illərdə öz inkişaf və sabitlik dövrünü yaşayırdı. Bu, müstəqilliyimizin ikinci dövrü idi. Bir daha qayıdıram müstəqilliyimizin ilk illərinə. Əgər o vaxt Heydər Əliyev kimi dahi şəxsiyyət – millətə canı, qanı ilə bağlı olan insan hakimiyyətdə olsaydı, biz o bəlalarla üzləşməyəcəkdik.*
>
> *İlham ƏLİYEV*
> *Azərbaycan Respublikasının Prezidenti*

dövlətini sevən bir liderə böyük ehtiyac yaranmışdı. Xalq inanırdı ki, ölkəni bu ağır günlərdən xilas edəcək və dövlətin suverenliyini bərpa edə biləcək yeganə şəxsiyyət Heydər Əliyevdir. Xalqımız güclü bir dövlət qurmaq üçün dahi şəxsiyyətin ətrafında sıx birləşməyin vacib olması barədə müdrik qərar verdi. 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev Azərbaycan xalqının çağırışına səs verərək, Bakıya qayıtdı. Ümummilli lider Azərbaycan xalqını gələcəkdə baş verə biləcək daha böyük bəlalardan xilas etdi. Heydər Əliyevin qayıdışı ölkəmizin, xalqımızın taleyində dönüş günü oldu, böyük inkişafa, gözəl gələcəyə doğru addım atıldı.

1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqil Azərbaycan dövləti böhrandan xilas oldu. Həmin gün Heydər Əliyev Azərbaycan Respublikası

# Ölkəmizin taleyində dönüş günü



Ali Sovetinin Sədri seçildi. İyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri Ali Sovetin Sədri Heydər Əliyevə verildi. 15 İyun Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış bir gün oldu – Milli Qurtuluş Günü. 1997-ci ilin iyun ayında Milli Məclis 15 İyun gününü bayram elan etdi.

Heydər Əliyevin adı Azərbaycan tarixinə Vətənin, xalqının xilaskarı kimi yazıldı. Ulu öndər Azərbaycanda vətəndaş həmrəyliyini yaratdı, eləcə də, sabitliyin, əmin-amanlığın, bərqərar olmasına nail oldu. Ulu öndərin ən bö-

***Azərbaycanın taleyüklü məsələlərində, çətin günlərində ulu öndər Heydər Əliyev həmişə xalqımızın dayağı olub və respublikamızı düşdüyü çətin vəziyyətlərdən xilas edib. Hələ 1990-cı ildə ulu öndər Heydər Əliyev müstəqillik yolunda çox önəmli və ciddi addımlar atmışdır. 20 Yanvar faciəsindən sonra o, birinci şəxs idi ki, sovet rəhbərliyini pislədi, Qanlı Yanvar faciəsini törədənlərə qarşı öz iradlarını irəli sürdü, onları ittiham etdi. Bir müddət sonra isə sovet hökumətini, onun rəhbərinin fəaliyyətini kəskin tənqid etdi. Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi və bu, müstəqillik uğrunda ilk addımlar idi.***

Ulu öndər artıq Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi, 1990-cı ilin noyabr ayında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək, "Sovet Sosialist" sözlərini oradan çıxardı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı o vaxt Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın dövlət bayrağı kimi qəbul edildi və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, bu istiqamətdə addım atılsın. Əfsuslar olsun ki, bunu etmədilər.

1991-ci ilin əvvəllərində Sovet İttifaqının saxlanılmasına dair Azərbaycanda referendum keçiriləndə Naxçıvan Heydər Əliyevin təşəbbüsü ilə referenduma getmədi. Bütün bunlar müstəqillik yolunda atılan addımlardır. Digər tərəfdən bu addımlar onu göstərir ki, ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təşəbbüskarıdır, onun banisidir.

Azərbaycan XX əsrin sonlarında müstəqilliyini bərpa etsə də, istər daxildə, istərsə də xaricdə bunu istəməyən güclü qüvvələr var idi. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və torpaqlarımızı işğal etməsi, eləcə də, daxildəki siyasi qüvvələrin hakimiyyət uğrunda çəkişmələri dövlətimizi tamamilə zəiflətmiş, məhv olmaq təhlükəsi yaratmışdır. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə deyildi. Əgər olsaydı, biz böyük itkilərlə üzləşməzdik. Müstəqilliyimizin birinci dövrü faciəvi dövr idi. 1991-1993-cü illərdə Azərbaycan çox böyük problemlərlə, itkilərlə üzləşmişdi. Bu dövrü iki mərhələyə bölmək olar. Birinci mərhələ 1991-ci ilin oktyabr ayından 1992-ci ilin yay aylarına qədər olan dövrdü. Bu, itirilmiş imkanlar, itkilər dövrü idi. Ermənistan Azərbaycana qarşı təcavüzə başlamışdı, azərbaycanlılar Dağlıq Qarabağdan qovulurdular. 1992-ci ilin may ayında Şuşanın və Laçın rayonunun işğal altına düşməsi böyük faciə idi.

O illərdə dövlətçiliyin əsasları qurulmamışdı, ekstremist elementlərə qarşı ciddi mübarizə aparılmamışdı, nizami ordu yaradılmamışdı, cəmiyyətdə milli həmrəylik yox idi. Bütün bu amillərdən, xüsusilə, Şuşanın və Laçın rayonunun işğal altına düşməsindən istifadə edərək – halbuki, bu rayonların işğal altına düşməsində AXC–Müsavat qruplaşmasının rolu vardı – bu qruplaşma hakimiyyəti qanunsuz olaraq zəbt etmişdi və birinci dövrün ikinci dəhşətli mərhələsi başlanmışdı.

1992-ci ildə AXC–Müsavat cütlüyünün hakimiyyəti qeyri-sivil yolla ələ keçirməsi ilə Azərbaycanda siyasi-iqtisadi böhran daha da dərinləşdi. Hakimiyyətin başında duran insanların səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması nəticəsində Azərbaycanda qanunsuz silahlı dəstələr yarandı. Məhz bu səriştəsizliyin və ölkədə baş alıb gedən hərc-mərcliyin nəticəsində regionlarda da separatçılıq, parçalanma meyilləri baş qaldırdı. Ölkəmizdə vəziyyət qarşısıalınmaz həddə çatmışdı. Hakimiyyətdə yüksək vəzifə tutan bir çox məmurlar özlərinə silahlı dəstələr yaratmışdılar. Respublikamızda vətəndaş müharibəsi və qardaş qırğını başlamışdı.

Hakimiyyətdə olan AXC–Müsavat cütlüyü baş verən bu hadisələrin qarşısında aciz qalmışdı və yalnız hakimiyyətdə olmaq haqqında düşünürdü. Xalq acınacaqlı vəziyyətə düşmüşdü. Xarici siyasətdə də böyük uğursuzluqlar hökm sürürdü. Qonşu ölkələrlə münasibətlər korlanmış, əlaqələr tamamilə kəsilmişdi. Azərbaycan dünyadan təcrid olunmuş vəziyyətdə idi. Dünya dövlətləri ilə iqtisadi-siyasi əlaqələr tamamilə dağıdılmışdır. AXC–Müsavat cütlüyünün bir illik hakimiyyəti dövründə Azərbaycanda baş alıb gedən anarxiya, xaos, özbaşınalıq nəticəsində iqtisadiyyat tamamilə çökmüşdü. Torpaqlarımız ermənilər tərəfindən hissə-hissə işğal edilirdi.

…Azərbaycan dövlətinin əsl müstəqilliyi, bir dövlət kimi inkişaf etməsi Qurtuluş Günündən başladı. Belə çətin və son dərəcə ağır gündə erməni təcavüzünə son qoyacaq, əhalinin sosial vəziyyətini yaxşılaşdıracaq, ölkəni vətəndaş müharibəsindən xilas edəcək, öz xalqını, yük arzusu Azərbaycan dövlətini bütöv görmək idi. Ümummilli lider keçmiş məcburi köçkünlərlə görüşlərində torpaqlarımızın işğaldan azad olunacağını əminliklə bildirirdi, onların dədə-baba yurdlarına mütləq dönəcəklərini qətiyyətlə vurğulayırdı. Ulu öndərin yeritdiyi siyasətin başında işğal altında olan torpaqlarımızın işğaldan azad edilməsi dururdu. Heydər Əliyev hər zaman "Biz bu torpaqlarsız yaşaya bilmərik"–deyirdi.

Azərbaycan xalqının ulu öndərə olan tükənməz inamı, Heydər Əliyev şəxsiyyətinin qüdrəti, əzəməti, öz xalqına sevgisi və məhəbbəti nəticəsində bugünkü güclü Azərbaycan dövləti formalaşmışdır. Tarixi şəxsiyyət Azərbaycanı parçalanmaqdan xilas etdi, ölkədə qayda-qanun bərpa olundu, güclü ordu quruculuğunun təməlini qoydu.

Hakimiyyət hərisliyində olan bir qrup şəxs ölkədə yaradılmaqda olan ciddi nizam-intizamla heç cür barışmaq istəmir, ətraflarına topladıqları silahlı birləşmələr vasitəsilə hakimiyyəti ələ keçirməyə çalışırdılar. Onların bütün cəhdləri iflasa uğradı və dövlət çevrilişi baş tutmadı. Ölkəmizdə tədricən demokratik ənənələrin əsası qoyuldu, çoxpartiyalılıq sistemində ilk parlament seçkiləri keçirildi, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi. Azərbaycanın dünyaya inteqrasiya olunmasına, eləcə də, ölkədə iqtisadi və siyasi islahatlara başlanıldı və çoxpartiyalı bir sistem yaradıldı.

Ulu öndərin gərgin siyasi fəaliyyəti sayəsində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirildi, atəşkəsə nail olundu. Azərbaycanın iqtisadi inkişafının və gələcəkdə böyük Qələbəmizin qazanılmasının əsası qoyuldu. "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan dövləti sürətli və dayanıqlı iqtisadi inkişaf yoluna qədəm qoydu.

Məhz ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində gördüyü işlərin nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclüləri sırasında yer tutur. Biz bunun 2016- cı ildəki Aprel döyüşlərində, Haxçıvanın Günnüt kəndinin işğaldan azad edilməsində və Tovuz əməliyyatında canlı şahidi olduq. Rəşadətli ordumuzun 2020-ci il sentyabrın 27- də Ermənistanın başladığı müharibədə göstərdiyi qəhrəmanlıq dünya birliyində də etiraf olunur. Vətən müharibəsində Azərbaycan Ordusunun göstərdiyi şücaət, xüsusilə, Şuşanın işğaldan azad edilməsi uğrunda həyata keçirilən hərbi əməliyyat bir çox dünya ölkələrinin ordularında öyrənilir.

Hazırda işğaldan azad edilmiş ərazilərimizdə başlanılan genişmiqyaslı yenidənqurma və bərpa-quruculuq işləri beynəlxalq aləmi heyran edib. Qısa müddətdə həyata keçirilən işlər, çətin coqrafi relyefə malik həmin ərazilərdə beynəlxalq standartlara cavab verən üç aeroportun tikintisi, dəmir və avtomobil yollarının bərpası, tunellər, elektrik xətlərinin yenidən qurulması Azərbaycanın bütün sahələrdə güclü olmasından xəbər verir. Bütün bunlar ulu öndərin uzaqgörən siyasətinin – Qurtuluş Gününün töhfələridir. Əminliklə söyləyirik ki, ulu öndər Heydər Əliyev müasir müstəqil Azərbaycanın banisi və memarıdır.

Ümummilli lider Heydər Əliyev bütün həyatını canından çox sevdiyi Vətəninə, xalqına həsr etmişdir. Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev dövlətimizin inkişafı və tərəqqisi üçün alternativi olmayan Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirir. Bu siyasətin nəticəsidir ki, Azərbaycan dünyada öz gücünü və nüfuzunu durmadan artırmaqdadır. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev bütün dünyaya Azərbaycanı qalib dövlət, xalqımızı isə qəhrəman xalq kimi tanıtdı.

***Kamilə ƏLİYEVA,***
***Milli Məclisin deputatı,***
***BDU-nun kafedra müdiri, professor***